# Emossional təsir gücünə malik əsər

Azərbaycan təsviri sənətinin tanınmış nümayəndəsi Kamal Əhmədin kifayət qədər tanınmış işlərindən biri- "Qadın pişiklə" müxtəlif sərgilərdə maraqla baxıldığından bəzi ədəbiyyat və mətbuat səhifələrində onun barəsində söhbətlər getməsinə baxmayaraq onun haqqında ətraflı elmi-nəzəri mahiyyətə malik məqalənin olmamasını, sənətsevərlər tərəfindən maraqla qarşılanacağını nəzərə alaraq müəllif hazırkı məqaləni oxucuların diqqətinə təqdim edir. Rəssam onu 70 sm x 80 sm ölçülü kətan üzərində yağlıboya texnikasında 1984- cü ildə işləmişdir.

Obrazların kəskin surətdə qroteskvari təsviri, formaların maksimal primitivliyi, dekorativ rənglərin təzadlı düzülüşü və uyuşması, effektli kontrast, personajların emosional təsir və ifadəliliyi - bütün bunlar əsərin dərin dramatizmini, daxili ziddiyyətini başa düşməklə tamaşaçıya istiqamət verir, onu düşündürür.

Kamal Əhmədin bir çox əsərlərində olduğu kimi burada da iki qütb sanki bir-birindən fərqləndirilir. Bir qütbdə - xeyir, işıq, ümid və inam, digər tərəfdə isə nifrin dünya. Hər iki dünyaya bir təsvir müstəvisinin, kətan parçasının üzərində rast gəlirik. Rəssam burada bu iki qütb arasında gedən, bütün bəşəriyyəti yarandığı vaxtdan bu günədək izləyən və yəqin ki, gələcəyədək izləyəsi, düşündürəsi olan daimi mübarizənin gedişatına öz münasibətini açıqlayır. Əksliklərin ziddiyyətindən öz fəlsəfi baxışlarını müzakirəyə təqdim edir. Cəmiyyətin dialektik inkişafı baxımından öz mövqeyini müəyyən edir.

Filosof kimi çıxış edən rəssam sanki onu əhatə edən obyektiv aləmin mahiyyətinə varmadan, onunla dərindən maraqlanmadan öz ilkin mənasından ayrılmış predmetləri, nəsə başqa bir substansiyanın məna daşıyıcısı, ifadəçisi kimi təqdim etməyə çalışır. Öz maddi varlığı ilə paralel olan, özünü yaradan və bəlli məna daşıyan mifoloji obrazlardan bəhrələnir və metaforik surətlərlə, həyat hadisələrini açmaqla onlara rəmzi ifadə tərzi gətirir. Bu qayda başqa sözlə, əl atdığı bədii fənd rəssamın fikrinin sadəlövh uşaq rəsmlərinə bənzər formada traktovkası üçün imkan yaratmışdır. Bu isə hardasa öz çəkdikləri ilə seyrcilər arasında isti bir münasibət yaratmaq istəyinə xidmət edir.

Rəng, faktura, kompozisiya, personajlar - bunların hansının bu əsərdə rəssam üçün əsas olduğunu müəyyən etmək çətindir. Lakin praktiki baxımdan "Qadın pişiklə" hansı tərəfdən təhlil olunarsa, o tərəfdən də layiqli müzakirə mövzusudur.

Təsvir müstəvisindən gur işığın fonunda enli plastik xətlərin köməyilə əcaib məxluqun, başqa sözlə, pişiyin həcmli, qorxu saçan təsviri kompozisiyanın horizontal planında 2/3 hissəsini tutur. Onun kompozisiyanın əsas mərkəzindən birbaşa tamaşaçıya çevrilmiş insanabənzər sifəti ilk baxışda diqqəti cəlb edir. Rəssam burada az fiqurla çox söz demək istəmişdir. Kompozisiyanın əsas hissəsini tutan, fonunda güclü işıq verilmiş əcaib məxluq qorxu saçır. Məhz formanın belə təsviri və güclü işıq hesabına rəssam tamaşaçının əsas diqqətini mərkəzə, qara və qırmızı rənglərlə təsvir olunmuş pişiyin həcmli fiquruna cəmləyərək ilk baxışdaca təbii olaraq heyrət, qorxu və narahatlıq doğuran suallarla əhatə edir, onu öz "hekayə"sinin təsiri altına salır. Daha sonra gözlərimiz zülmət gecənin qaranlığında səmanı bəzəyən, onu bu yeknəsəqlikdən, qorxu və həyəcandan azad edən qırmızı, ucları tam yuxarıya doğru çevrilmiş ayparanı görür.

Kompozisiyanı şaquli xətt boyunca ikiyə bölən, sanki qorxudan büzüşərək, köməksiz vəziyyətdə, lakin simasında təmkinlə verilmiş qadın fiquru əsərin əsas ideyasını əsasən iki planda qavramağa imkan verir: simvolik ifadəli və süjetli təhkiyəçilik. Birinci planda heç bir xüsusi təfsilat olmadan əsas məqam anlaşılır; ikinci planda isə





tamaşaçı süjetli təhkiyyə yolu ilə rəssamın hekayəsini anlaya və yaxud özününkünü düşünə bilər.

Kompozisiyanın tərtibatı zamanı rəssam kompozisiyanın məzmun və forma vəhdəti qanununa sadiq qalaraq əsərin bu iki dialektik tərəfini - məzmunun özündən gələn formanı tapmağa, onun estetik, emosional, ideya-idrakı təsir gücünü labüd etməyə nail olur. Personajların psixoloji durumunun təsviri, fiqurların poza və hərəkətlərində də, süjetin məntiqi və emosional quruluşunda da kompozisiyanın bütövlüyünü görürük.

***Heç şübhəsiz ki, hər hansı rəssamın işinə qiymət verərkən onun bədiiestetik xüsusiyyətləri əsasında rəssam işinə incəsənət əsəri demək mümkündür.Rəy verməyə çalışdığımız əsərə gəldikdə isə onun dramatik təbiəti göz önündədir.***

Təbiət və cəmiyyətin həyatında təzadlar obyektiv qanunauyğunluq kimi mövcuddur. Belə olduğu halda əsərdə rəssam tərəfindən yaradılmış istər rənglərdə olsun, istərsə də həcm və formanın tarktovkasında özünü büruzə verən süjetin anlaşılmasına, əsərin ideyadərkinə xidmət edən təzadları başa düşmək çətin deyil.

Kompozisiyanın əsas fiquru sayılan pişik təsviri ilahi personaj kimi təsviri incəsənətdə hələ e.ə. 2-ci minillikdən istifadə olunur. Alimlər onun 20-dək yarımcinsinin olduğunu və ilk dəfə Qədim Misirdə əhliləşdirildiyini qeyd edirlər. Qafqaz və Ön Asiyanın qədim xalqlarının pişiklə tanışlığı bəlkə də neolit və tunc dövrlərinə təsadüf edir. Bu baxımdan dünyanın bir çox xalqlarının mifologiyasında əksər hallarda iblis və natəmiz qüvvəni ifadə edir. Hindlilərdə xüsusi pişiyəbənzər cinlərin bədxah ruhlarına inam mövcuddur. Yapon ənənələrinə görə, fövqəltəbii qüvvə kimi pişik bədniyyət uğursuz varlıq sayılır. Əksinə, Çində isə onun bədxah ruhları qovmaq xasiyyətinə inanırdılar. Türk xalqlarının, o cümlədən biz azərilərin də mifoloji təsəvvürlərində qara pişik uğursuzluq, bədniyyətlilik, qara qüvvə rəmzi kimi qəbul edilir.

Məsələ burasındadır ki, Kamal Əhməd bütün yaradıcılığı boyu, sanki özündə bir ideya kodu daşıyan simvollar müəyyən etmişdir. Hazırki əsərdə biz onlardan qara qüvvələri təmsil edən, insanabənzər əcaib pişiyi və ayparanı (hansı ki, xeyirxahlıq, işıq və xeyiri ifadə edir) görürük. Pişiyin insana və yaxud əksinə, insanın pişiyə çevrilməsi motivi insanların tinyətindəki pişik sərhədlərinin bu qorxunc iblislə sezilməz dərəcədə olduğuna işarədir.

Əsərdə rast gəldiyimiz digər simvol aypara isə Kamal Əhmədin özünün məxsus olduğu xalqın qədim astral inanclarından, onun genetik yaddaşından süzülüb gələn, əsərlərindən əsərinə köçən, özünə yer tutan rəmzdir. O, burada gözəlliyi, poeziyanı, xeyirxahlığı, xoş niyyəti simvolizə edir.

K.Əhmədin işlərini Azərbaycanın digər rəssamlarının işlərindən əsaslı dərəcədə fərqləndirən cəhətlərdən biri də məhz onun "aypara"sıdır. Çünki o çox vaxt gecələr işləyirdi. Gecələr isə ay belə dayanır.

Buna görə də istənilən halda əsərdəki əsas ideyanı - işıq və zülmətin, əksliklərin mübarizəsi, xeyir və şər arasında gedən ziddiyyət kimi intepretasiya edə bilərik.

Bu mübarizə əsərin əsaslandığı rəng palitrasında da özünü göstərir. Aparıcı yer isti xromatik qırmızı rəngə məxsusdur. O, kompozisiyanın müxtəlif yerlərində yerləşərək, əsərdə mövcud digər rənglə - qara rənglə kontrast əmələ gətirir. Eyni zamanda ritmik olaraq təkrarlanmaqla əsərin dramatikliyini, daxili gücünü artırır.

Bu əcaib, qorxunc qüvvələrin, zülmətin zamanında sanki haqqa və ədalətə göstərdiyi təpkini Kamal Əhməd konkret məkanda deyil, ümumi məkan və zamanda - sənətşünas T.İbrahimovun təbirincə desək, laməkanda həll etmişdir. Buna görə də əsər həqiqətən bədii-estetik dəyərə, emosional təsir gücünə malik incəsənət əsəri kimi qiymətləndirilə bilər.

**Aytən MURADLI,**
**sənətşünas**